**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 16**

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

**Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə görə ödənişin məbləğlərinin tənzimlənməsi barədə**

"Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə uyğun olaraq Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR:**

1. Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə (STTSAS) qoşulma xidmətinə görə ödənişin məbləğləri təsdiq edilsin:
1.1. "Məişət abonentlərinin STTSAS-ə qoşulma xidmətinə görə ödənişin məbləğləri" (Əlavə 1);
1.2. "Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrə qədər olan (100 kubmetr daxil olmaqla) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin STTSAS-ə qoşulması xidmətinə görə ödənişin məbləğləri" (Əlavə 2);
1.3. "Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrdən yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin STTSAS-ə qoşulması xidmətinə görə ödənişin məbləğləri" (Əlavə 3).
2. Tullantı sularının axıdılması sistemi olmayan ərazilərdə ödəniş yalnız su təchizatı sisteminə qoşulmaya görə tətbiq edilir.
3. Bu qərar 2025-ci il 2 yanvar tarixindən qüvvəyə minir.

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2024-cü il 29 dekabr tarixli*
*16 nömrəli qərarına Əlavə 1*

## Məişət abonentlərinin STTSAS-ə qoşulma xidmətinə görə ödənişin məbləğləri

| № | Borunun diametri, millimetr | | Qoşulma xidmətinə görə ödənişin məbləği (ƏDV ilə, manat) |
|---|---|---|---|
| **1.** | **Su təchizatı sistemi üzrə** | | |
| 1.1. | D32 | Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu | 200 |
| 1.2. | | Digər inzibati ərazi vahidəri üzrə | 170 |
| **2.** | **Tullantı sularının axıdılması sistemi üzrə** | | |
| 2.1. | D150 | Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu | 345 |
| 2.2. | | Digər inzibati ərazi vahidəri üzrə | 290 |

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2024-cü il 29 dekabr tarixli*
*16 nömrəli qərarına Əlavə 2*

**Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrə qədər olan (100 kubmetr daxil olmaqla) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin STTSAS-ə qoşulma xidmətinə görə ödənişin məbləğləri**

| **№** | **Borunun diametri, millimetr** | **Qoşulma xidmətinə görə ödənişin məbləği (ƏDV ilə, manat)** |
|---|---|---|
| **1.** | **Su təchizatı sistemi üzrə** | |
| 1.1. | D32 | 995 |
| 1.2. | D40 | 1015 |
| **2.** | **Tullantı sularının axıdılması sistemi üzrə** | |
| 2.1. | D150 | 1635 |

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2024-cü il 29 dekabr tarixli*
*16 nömrəli qərarına Əlavə 3*

## Sutka ərzində tələb olunan buraxılış həcmi 100 kubmetrdən yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin STTSAS-ə qoşulma xidmətinə görə ödənişin məbləğləri

| № | Borunun diametri, millimetr | Qoşulma xidmətinə görə ödənişin məbləği (ƏDV ilə, manat) | | | |
|---|---|---|---|---|---|
| | | Fiziki qoşulma üçün | Layihələndirmə işləri və fiziki qoşulma üçün | Tikinti-quraşdırma işləri və fiziki qoşulma üçün | Tikinti-quraşdırma, layihələndirmə işləri və fiziki qoşulma üçün |
| **1.** | **Su təchizatı sistemi üzrə** | | | | |
| 1.1. | D50 | 210 | 410 | 1255 | 1455 |
| 1.2. | D63 | 215 | 415 | 1300 | 1500 |
| 1.3. | D90 | 240 | 440 | 1425 | 1625 |
| 1.4. | D110 | 255 | 455 | 1530 | 1730 |
| 1.5. | D160 | 315 | 515 | 1895 | 2095 |
| 1.6. | D225 | 425 | 625 | 2535 | 2735 |
| 1.7. | D280 | 530 | 730 | 3190 | 3390 |
| **2.** | **Tullantı sularının axıdılması sistemi üzrə** | | | | |
| 2.1. | D200 | 245 | 505 | 2440 | 2700 |
| 2.2. | D300 | 295 | 555 | 2940 | 3200 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.3. | D400 | 350 | 610 | 3505 | 3765 |
| 2.4. | D500 | 525 | 785 | 5220 | 5480 |
| 2.5. | D600 | 680 | 940 | 6780 | 7040 |